# MÜBARİZ KEŞİKDƏ

30 avqust 2018-ci il
Cümə axşamı

№ 34 (3398)

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELİN AZƏRBAYCANA SƏFƏRİ





Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkel avqustun 25-də Azərbaycana səfərə gəlib.

Avqustun 25-də rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev Almaniyanın Federal Kansleri Angela Merkeli qarşılayıb.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Azərbaycan Prezidenti və Almaniyanın Federal Kansleri görüşdə çıxış ediblər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin adından Almaniyanın Federal Kansleri Angela Merkelin şərəfinə rəsmi nahar verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin birgə mətbuat konfransı olub.

Prezident İlham Əliyev və Federal Kansler xanım Angela Merkel mətbuat konfransında çıxış ediblər.

Avqustun 25-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin iş adamları ilə görüşü olub.

Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkelin avqustun 25-də Azərbaycan Respublikasına səfəri başa çatıb.

## PREZİDENT İLHAM ƏLİYEV XƏTAİ RAYONUNDA SALINAN İDMAN-ƏYLƏNCƏ PARK KOMPLEKSİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUB

Avqustun 24-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxtın Xətai rayonunda salınan idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olublar.

İdman-əyləncə park kompleksi Bakının Xətai rayonunda Yusif Səfərov, Ələddin Quliyev və Sergey Senyuşkin küçələrini əhatə edən ərazidə salınıb.

Görülən işlərlə tanışlıq zamanı Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov yeni yaradılan idman-əyləncə park kompleksi barədə Prezident İlham Əliyevə məlumat verib.

Qeyd edilib ki, idman-əyləncə park kompleksi ilə 2016-cı ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan "Sevirəm" parkını asfaltlanmış sahə, avtodayanacaqlar və müasir metal körpü birləşdirir.

Yeni parkların və istirahət məkanlarının yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir. Belə layihələrin icrası bir daha sübut edir ki, paytaxtımızın abadlaşdırılması istiqamətində görülən işlər davamlıdır və yüksək keyfiyyətlə yerinə yetirilir.

***Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-26-da Şamaxı və İsmayıllı rayonlarında bir sıra sosial obyektlərin açılışlarında iştirak ediblər.***

Avqustun 28-də Bakı bulvarının tarixi rəmzlərindən biri olan və yenidən bərpa edilən "Qu quşları" fəvvarə kompleksinin açılışı olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva kompleksin açılışında iştirak ediblər.

## PREZİDENT İLHAM ƏLİYEV BAKI BULVARINDA YENİDƏN BƏRPA EDİLƏN "QU QUŞLARI" FƏVVARƏ KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK EDİB

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya burada görülən işlər barədə məlumat verib.

Dövlətimizin başçısı və birinci xanım dənizkənarı milli parkda kiçik Venesiya şəhərciyinin ərazisinə də baxıblar. Burada yeni yer örtüyü salınıb, əlavə ağaclar əkilib, ətraf abadlaşdırılıb.

## HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ YARADILAN BAKI KİTAB MƏRKƏZİNİN AÇILIŞI OLUB

Avqustun 28-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım Mərkəzin rəmzi açılışını bildirən lenti kəsiblər.

Burada mütəmadi olaraq müxtəlif kitab təqdimatları, məşhur yazıçılar, şairlər, həmçinin sevilən mədəniyyət və incəsənət xadimləri ilə görüşlər, ustad dərsləri olacaq. Bundan başqa, mərkəzdə uşaq və yeniyetmələrdə mütaliəyə marağı artırmaq üçün tanınmış şəxslərin iştirakı ilə oxu günləri, dil kursları və digər tədbirlərin keçirilməsi nəzərdə tutulur. Bakı Kitab Mərkəzinin 3 dildə saytı fəaliyyət göstərəcək və oxucular bu internet səhifəsi vasitəsi ilə kitablar sifariş edə biləcəklər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nizami Gəncəvinin 1941-ci ildə nəşr olunmuş "İsgəndərnamə" əsəri və Dubrovinin 1866-cı ildə çap edilmiş "Zakavkazye" adlı tarixi əsərinin siqnal nüsxələrinə baxıblar.

**Dövlətimizin başçısı avqustun 24-də Azərbaycan Respublikasında idmanın inkişafındakı xidmətlərinə görə Mixail Valeryeviç Timofeyevin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev avqustun 24-də Moldova Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab İqor Dodona təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri avqustun 27-də İsmayıllı rayonunda yeni xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Avqustun 27-də Azərbaycan Prezidenti İlham Əliyev İsmayıllı şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və uşaq bağçası binasının tikintisi ilə bağlı tədbirlər haqqında sərəncamlar imzalayıb.***

❖❖❖❖❖

**Avqustun 27-də ölkəmizin rəhbəri Şamaxı rayonunun Çuxuryurd-Sis-Qaleybuğurd-Keçməddin-Qaladərəsi avtomobil yolunun, "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi və əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev avqustun 28-də Elmar Rüstəm oğlu Vəliyevin Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi və Niyazi Müzəffər oğlu Bayramovun bu vəzifəyə təyin olunması haqqında sərəncamlar imzalayıb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı avqustun 28-də Niyazi Müzəffər oğlu Bayramovun Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri avqustun 28-də İbrahim Ənvər oğlu Mustafayevin Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Avqustun 28-də Azərbaycan Prezidenti İlham Əliyev Vaqif Bəhram oğlu Həsənovun Ağdam Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Avqustun 28-də dövlətimizin başçısı Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev avqustun 29-da Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı avqustun 29-da Gürcüstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradzenin etimadnaməsini qəbul edib.***

## GÖRÜŞƏNƏDƏK, QUBADLI...

1988-ci ildən başlayaraq, Ermənistanla və Dağlıq Qarabağla sərhəddə yerləşən Qubadlı rayonuna hər iki tərəfdən təcavüzkar hücumlar başlanmış, dinc əhaliyə qarşı qırğınlar sistemli şəkildə davam etdirilmişdir...

*Bax səh.3.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri, general-polkovnik Ramil Usubov avqustun 25-də Şəki Şəhər-Rayon Polis Şöbəsində daxili işlər orqanlarının fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib...

## SÜLH
### Adı kimi özü də gözəldir

Uşaqlar onun adını bilmirlər. Böyüklərin isə, bu söz dilindən düşmür. Çünki uşaqları var, onların taleyindən narahatdırlar.

"Təki dünyada sülh olsun, təki sülhü qoruyaq" kimi ifadələri dünyanın ən güclü dövlətləri də deyir, gücsüzləri də. Və əlbəttə ki, sülhü güclülər qoruyar ki, zəiflər də rahat yaşaya bilsin. Əslində biz yaşadığımız dünyanın o biri adına sülh deyirik...

*Bax səh.2.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

**Daxili İşlər Nazirliyində "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2013-cü il tarixli Fərmanından və "Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli Qanunundan irəli gələn vəzifələrin icra vəziyyətinə həsr olunmuş birgə müşavirə keçirilib.**

Müşavirədə daxili işlər naziri, general-polkovnik Ramil Usubov və Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan daxili işlər naziri qeyd olunan normativ-hüquqi aktların icrası ilə əlaqədar cari il sentyabr ayının 1-dən yeni nəsil elektron şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanılacağını diqqətə çatdırıb, Daxili İşlər və İqtisadiyyat nazirliklərinin müvafiq strukturlarının və tərəfdaş "İdrak Texnoji Transfer" şirkətinin bütün ölkə ərazisində göstərilən tarixdən yeni sənədin verilməsi istiqamətində hazırlıq, texniki işləri uğurla başa çatdırdığını bildirib.

Respublikanın iqtisadiyyat naziri Şahin Mustafayev həmkarının fikirlərini bölüşərək yeni nəsil şəxsiyyət vəsiqələrin tətbiqinə hazırlıq mərhələsində prosesə cəlb olunmuş bütün iştirakçıların birgə səmərəli əməkdaşlığını yüksək qiymətləndirib. O, qeyd olunan məsələlərin hər iki dövlət orqanının rəhbərliyi səviyyəsində dəfələrlə müzakirə edildiyini, qarşıya çıxan bütün problemlərin uğurla həllini tapdığını xatırladıb, bu işdə əməyi keçən bütün struktur qurumlara və şəxslərə təşəkkürünü bildirib.

Sonra Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən polis polkovniki Elçin Məmmədov, İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri Tural İsgəndərov və "İdrak Texnoji Transfer" şirkətinin məsul əməkdaşı Cavanşir Hüseynov yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqi istiqamətində görülən hazırlıq işləri barədə müşavirə iştirakçılarına ətraflı məlumat veriblər.

Qeyd olunub ki, yeni nəsil şəxsiyyət vəsiqələrin verilməsi məqsədilə respublikanın Ədliyyə, Səhiyyə nazirliklərinin, Dövlət Miqrasiya, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətlərinin, Dövlət Əmlak Məsələləri Komitəsinin informasiya resurslarından istifadə edilməklə zəruri məlumat mübadiləsinin aparılması, həmçinin vəsiqə sahibinin gücləndirilmiş elektron imzasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Sertifikat Xidmətləri Mərkəzindən alınması üçün qarşılıqlı əlaqənin yaradılması təmin olunub. Bundan əlavə, yeni nəsil şəxsiyyət vəsiqələrin verilməsi məqsədilə zəruri avadanlıqlar ərazi polis orqanlarının qeydiyyat və şəxsiyyət vəsiqəsi qurumlarında və "ASAN xidmət" mərkəzlərində quraşdırılıb, texniki parametrlərinin və iş göstəricilərinin yoxlanılması məqsədilə onlara sınaq baxışları keçirilib, yeni texnika ilə işləyəcək əməkdaşlar üçün müvafiq treninqlər keçirilib.

Hər iki nazir görülən işlərin Azərbaycan Respublikası Prezidentinin daim diqqət və nəzarətində olduğunu, həyata keçirilən tədbirlər barədə mütəmadi olaraq, dövlət başçısına məruzə edildiyini vurğulayıblar, rəhbərlik etdikləri nazirliklərin aidiyyəti qurumlarının cari il sentyabrın 1-dən yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsinə tam hazır olduğunu diqqətə çatdırıblar.

*29 avqust 2018-ci il.*

**Avqustun 29-da Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov Əlahiddə Çevik Polis Alayında DİN-in baş idarə, idarə və ərazi polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

Aidiyyatı baş idarə, idarə və xidmət rəislərinin də iştirak etdikləri tədbirdə nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Ümumən 379 iddiaçının arasından daha hazırlıqlı olan 309 nəfərin daxili işlər orqanlarında xidmətə qəbul olunması üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Namizədlər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında keçirildiyini vurğulayıb. Ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mükəmməl təhsilə, yüksək mənəvi və işgüzar keyfiyyətlərə, hərtərəfli dünyagörüşə malik gənclərin hər zaman dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün tövsiyə və tapşırıqlarını xatırladıb, bu istiqamətdə hər zaman konkret addımların atıldığını, hazırkı seçimlərin də göstərilən sahədə uzun müddətdir həyata keçirilən məqsədyönlü siyasətin növbəti bariz nümunəsi olduğunu bildirib.

Cənab Ramil Usubov ulu öndər Heydər Əliyevin əsasını qoyduğu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, sabitliyin, əmin-amanlığın təmini, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunması siyasətinin hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının da üzərinə böyük məsuliyyət qoyduğunu, hər bir əməkdaşın öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməsinin əhəmiyyətini vurğulayıb.

Nazir vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, son illər ölkəmizin bütün sahələrdə müşahidə edilən dinamik inkişafının təməlində xalq-iqtidar birliyinin, möhtərəm Prezidentimizin rəhbərliyi ilə respublikamızda uğurla həyata keçirilən hüquq-mühafizə siyasətinin, ictimai-siyasi sabitliyin dayandığını, bu istiqamətdə qazanılmış müsbət nəticələrin dövlətimizin başçısı tərəfindən hər zaman yüksək qiymətləndirildiyini xatırladıb.



General-polkovnik Ramil Usubov xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək şərəfli polis adını uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini daim artırmalarını, öz üzərilərində səylə çalışmalarını, idmanla sıx məşğul olmalarını, müasir dövrün tələblərinə və çağırışlarına cavab vermələrini, informasiya texnologiyalarının ən son nailiyyətlərini praktikada fəal şəkildə tətbiq etmələrini, insan və vətəndaş hüquq və azadlıqlarına, onların şərəf və ləyaqətinə hörmətlə, həmçinin vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını tövsiyə edib, gələcək xidməti fəaliyyətlərində onlara uğurlar arzulayıb.

*29 avqust 2018-ci il.*

***Cinayətkarlıqla mübarizə və ictimai asayişin təmini işinə öz töhfəsini vermiş, haqq etdikləri təqaüdə çıxsalar belə məsləkinə, əqidəsinə bağlı, peşəsinə, amalına sadiq olan, cəmiyyətdə qanun keşikçisinin nüfuzunun, fədakar, əzmkar xidmətinin hər zaman yüksək səviyyədə qorunub-saxlanılmasının qeydinə qalan daxili işlər orqanlarının veteranlarından söhbət düşəndə "Polisə dəstək" İctimai Birliyinin sədri, istefada olan polis polkovniki, həmçinin Mətbuat Şurasının icraçı katibi Şəmsəddin Əliyevin adı öncüllər sırasında çəkilir. Bu günlərdə Şəmsəddin Əliyev anadan olmasının 70, rəhbərlik etdiyi birlik isə yaradılmasının 10 illiyini qeyd etdi.***

***Əlamətdar hadisələr münasibətilə avqustun 24-də DİN-də keçirilən mərasimdə yubilyarı təbrik edən daxili işlər naziri, general-polkovnik Ramil Usubov ömrünün ən məhsuldar dövrünü polisin sıralarında keçirmiş hörmətli veteranımızın və başçılıq etdiyi qurumun ölkə Prezidentinin rəhbərliyi altında qətiyyətlə aparılan hüquq-mühafizə siyasətinin uğurlu nəticələrinin təbliğində, ictimaiyyətə çatdırılmasında, respublikamızda sabitliyin, əmin-amanlığın yaradılmasında daxili işlər orqanlarının fədakar xidmətinin, gərgin əməyinin təşviq olunmasında, əhalinin ən müxtəlif təbəqələrinin, xüsusən yeniyetmə və gənclərin hüquqi maarifləndirilməsində, cinayətkarlıqla mübarizədə polis orqanlarına ictimai dəstəyinin təmin olunması kimi önəmli missiyanın həyata keçirilməsindəki rolunu yüksək qiymətləndirib.***



***Göstərilən istiqamətdə uzunmüddətli səmərəli fəaliyyəti, həmçinin anadan olmasının 70 illiyi nəzərə alınmaqla təltif olunduğu "Azərbaycan Polisinin 100 illiyi (1918-2018)" yubiley medalını təqdim edən general-polkovnik Ramil Usubov yüksək mükafat və doğum günü münasibətilə Şəmsəddin Əliyevi təbrik edib, ona möhkəm cansağlığı, uzun ömür, çoxşaxəli fəaliyyətində yeni nailiyyətlər arzulayıb. Nazir onun daxili işlər orqanlarında topladığı təcrübəni bundan sonra da gənclərlə bölüşəcəyinə, onların Vətənə, dövlətə, dövlətçiliyə sədaqət, hüquq-mühafizə orqanlarına hörmət ruhunda tərbiyə olunmaları, cəmiyyətdə polisin yüksək nüfuzunun və imicinin qorunub-saxlanılması işinə yeni töhfələr verəcəyinə əminliyini bildirib.***

***Səmimi qəbula, özünün və rəhbərlik etdiyi qurumun fəaliyyətinə verdiyi yüksək qiymətə, ünvanına deyilən səmimi, xoş sözlərə və mükafata görə cənab nazirə minnətdarlığını bildirən Ş.Əliyev polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsində, cinayətkarlıqla mübarizədə, asayişin təminində, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında qanun keşikçilərinin cəmiyyət üçün olduqca gərəkli xidmətləri barədə obyektiv rəyin formalaşdırılması, bu istiqamətdə fəal maarifləndirmə işlərinin aparılması üçün bundan sonra da var qüvvəsini əsirgəməyəcəyini vurğulayıb.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri, general-polkovnik Ramil Usubov avqustun 25-də Şəki Şəhər-Rayon Polis Şöbəsində daxili işlər orqanlarının fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Qəbulda Şəki də daxil olmaqla Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarının sakinlərindən, eyni zamanda, həmin bölgədə məskunlaşmış qaçqın və məcburi köçkünlərdən müraciət edən 21 nəfər iştirak edib.

Vətəndaşları şəxsən dinləyən nazir onları narahat edən problemlərin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün aidiyyatı baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb, polisin fəaliyyətinə aid olmayan ərizələrin aidiyyatı üzrə digər dövlət orqanlarına göndəriləcəyi nəzərə çatdırılıb.

Tədbirdə iştirak edənlər göstərilən diqqət və qayğıya, bölgələrdə mütəmadi olaraq vətəndaşların qəbulunun təşkilinə, icra orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ münasibətə və həssas yanaşılmasına görə dövlətimizin başçısına minnətdarlıq edib, onun ölkəmizin sürətli inkişafına yönəlmiş ardıcıl, məqsədyönlü və qətiyyətli siyasi kursunu hər zaman dəstəkləyəcəklərini vurğulayıblar.

*25 avqust 2018-ci il.*

# MƏKTUB GƏLİB...

**Müəlliflər müxtəlif olsa da, mövzu eynidir: İnsanların əmlakını və həyatını cinayətkar qəsdlərdən qoruyan həmkarlarımıza çətin və şərəfli peşə vəzifələrini yerinə yetirmək işində xoş arzular ifadə olunur. Elələri də var ki, onları həyəcansız oxumaq mümkün deyil.**

Belə məktublardan birini **Lənkəran şəhər sakini, təqaüddə olan polis mayoru Vaqif Həsənov** ünvanlayıb. Təqaüddə olsa da o bu gün də öz üzərində polisin diqqətini və qayğısını hiss edir. Yazır ki, övladının dəfn mərasimi ilə əlaqədar müraciət edib. Həmkarlarımız onu tək buraxmayıblar. Hüznlü ataya həm maddi, həm də mənəvi dəstək olublar. Ona göstərilən köməkliyə görə DİN Şəxsi Heyətlə İş İdarəsinin və Lənkəran ŞRPŞ-nin kollektivlərinə minnətdarlığını bildirir.

**Astara rayon sakini, Qarabağ müharibəsi veteranı, birinci qrup əlil Uğur İbrahimov** müalicəsi üçün yaradılan şəraitə, göstərilən qayğıya görə DİN rəhbərliyinə minnətdarlığını bildirir.

**Bakı şəhər sakini Ramil Ağamirzəyev** məktubunda yazır ki, ona verilməyən evi üçün ödədiyi vəsaitin geri qaytarılması ilə bağlı Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə şikayət ərizəsi ilə müraciət edib. Müraciətinə obyektiv baxılmasına və dəymiş ziyanın ödətdirilməsində etdikləri köməkliyə görə minnətdarlığını bildirir.

**Paytaxt sakini Anar Cabbarov** şikayət ərizəsinə vaxtında və obyektiv baxıldığına görə Xəzər RPİ-nin rəhbərliyinə təşəkkürünü bildirir.

# SÜLH
## Adı kimi özü də gözəldir

**Uşaqlar onun adını bilmirlər. Böyüklərin isə, bu söz dilindən düşmür. Çünki uşaqları var, onların taleyindən narahatdırlar.**

"Təki dünyada sülh olsun, təki sülhü qoruyaq" kimi ifadələri dünyanın ən güclü dövlətləri də deyir, gücsüzləri də. Və əlbəttə ki, sülhü güclülər qoruyar ki, zəiflər də rahat yaşaya bilsin. Əslində biz yaşadığımız dünyanın o biri adına sülh deyirik. Yəni dünyanı qoruyaq ki, o dağılmasın, Allahın özünün bildiyi qiyamət gününü vaxtından əvvəl öz yaratdığı insan tezləşdirməsin. Sülh dünya sözünün sinonimidir...

Hərdən adama elə gəlir ki, müharibə gedən ölkələrdə təbiət insan şəklinə düşüb və ya quş cildinə girib çox uzaqlara qaçmaq istəyir. Məsələn, ağaclar kökündən çıxıb göyə dartınırlar. Siz heç müharibə gedən bölgələrdən çəkilən televiziya kadrlarında quş, böcək, ilan, daha doğrusu, insandan, onun vəhşiliyindən başqa hər hansı bir canlı görmüsünüz? Yox! Müharibədə ilk güllə dəyən, ilk yara alan təbiət olur. Mərmi partlamazdan öncə torpağın ürəyi partlayır...

XXI əsrdə sülhü arzulamaq çox gülməli görünür. Dünyaya sülh mesajı verənlərin



silahları bir an belə susmursa, o silahlar ölkələri viran qoyursa, uşaqları öldürürsə, o zaman ilahi ədalətin axtarışında olanlar, demək olar ki, çoxdan yanılıblar və onlar onu heç zaman tapa bilməyəcəklər.

"Mən güclüyəmsə, haqlıyam" deyənlərə əgər gücümüz çatmırsa, dünyanın mizanını pozanlar əbədi olmayacaqlarını düşünmürlərsə, o zaman bizlər yox, çünki günahımız boyumuzdan və yaşımızdan böyükdür, buraxın uşaqlar əllərini göyə qaldırıb Onu köməyə çağırsınlar. O, uşaqları tez eşidir. O, uşaqları, uşaqların göz yaşlarına bürünmüş sülhü qorumaq üçün dünyanı viran qoymadan, bir qarışqanın, bir quşcuğazın yuvasını dağıtmadan, əlbəttə ki, nəsə edər.

Çünki O, bizləri bütün səmavi kitablarında xeyirxahlığı, insanlığı, sülhü qorumağa çağırır.

Və yeri gəlmişkən, BMT-nin qərarına əsasən, 1981-ci ildən 21 sentyabr bütün ölkələrdə Beynəlxalq Sülh günü kimi qeyd olunur. BMT-dən fərqli olaraq isə maraqların toqquşduğu dünyamızda uşaqlar bir gün yox, hər gün sülh istəyirlər.

**Sözardı:** ***"Sülhü sevirsənsə, müharibəyə..." Yox, onsuz da bütün dünyada müharibə gedir...***

***Hafiz Təmirov,***
***polis mayoru***

# BU GÜNÜN GƏNCLİYİ GƏLƏCƏYİ

**Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Çünki ölkənin gələcəyi, müqəddəratı onlardan asılı olacaqdır.**



Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub-yaşadır. O, öz həyatını qurarkən ilk növbədə müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir.

Ölkəmizdə gənclər siyasətinin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Ümummilli liderimiz həmişə xalqına arxalanır, onun gəncliyinə böyük ümidlər bəsləyir və dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir.

1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması, ümummilli liderin 1995-ci ildə irəli sürdüyü Gənclər Forumu ilə bağlı təşəbbüsündən sonra 1996-cı ildən başlayaraq, Azərbaycan gənclərinin forumlarının keçirilməsi, 1997-ci ildə fevralın 2-nin Azərbaycan Gəncləri günü elan edilməsi, beş dövlət proqramının qəbulu, 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" fərmanın imzalanması və geniş fəaliyyət proqramının təsdiq edilməsi Heydər Əliyevin gənclərə böyük qayğısının sübutudur.

Gənclərlə bağlı digər mühüm sənəd 2002-ci ildə qəbul edilmiş "Gənclər siyasəti haqqında" qanundur. "XXI əsr Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub-yaratmaq və inkişaf etdirmək dövrüdür", - deyən ulu öndər Heydər Əliyevin gəncliyə və gənclərə olan etimadı artıq öz təsdiqini tapmaqdadır.

Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti bu gün yeni mərhələyə qədəm qoymuşdur. Prezident İlham Əliyev ulu öndərin gənclər siyasətinə sadiqliyini qəbul etdiyi bütün qərarları ilə təsdiq edir. Dövlətimizin başçısının ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilmişdir. Azərbaycanın müxtəlif bölgələrində Olimpiya-idman komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın olimpiadalarda, dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur.

Bu gün Azərbaycan gəncləri öz fəaliyyətləri ilə sübut etmişlər ki, onlar ölkəmizin dəyərli vətəndaşlarıdır. Müstəqillik və dövlətçiliyimizin möhkəmləndirilməsi, etibarlı gələcəyimizin təmin edilməsi gənclərin ictimai-siyasi fəallığının yüksəldilməsindən çox asılıdır.

Azərbaycan gəncləri həm də beynəlxalq gənclər hərəkatının tərkib hissəsidir. Onların xarici ölkələrdə təşkilatlanması da uğurla gedir. Azərbaycan gəncliyi bu gün həm də Avropa Gənclər Forumu, Dünya Türk Gənclər Birliyi, GUAM ölkələri Gənclər Forumu, İslam Konfransı Gənclər Forumu, Avropa Tələbələr Forumu, Tələbələrin İqtisadiyyat və Menecment üzrə Beynəlxalq Assosiasiyası, ümumilikdə Avropanın və dünyanın 30-dan çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunur. Bu, böyük nailiyyətdir. Bütün bunlar gənclərimizin sabahına daha böyük inamla baxmağa əsas verir.

Bu gün Azərbaycan öz tarixinin şərəfli və mürəkkəb bir dövrünü yaşayır. Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması, dövlət müstəqilliyinin və suverenliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, o cümlədən işğal olunmuş torpaqlarımızın azad olunması, ölkə iqtisadiyyatının sürətlə inkişaf etdirilməsi, əhalinin sosial problemlərinin həlli kimi görüləsi işlər hələ çoxdur. XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı və məsuliyyəti həm də gənclərin üzərinə düşür.

Bütün ölkədə olduğu kimi, daxili işlər orqanlarında da xidmət edən gənc əməkdaşlar hərtərəfli diqqət və qayğı ilə əhatə olunublar. Gənclərin əsl peşəkar, layiqli vətəndaş kimi yetişməsi üçün hər cür şərait yaradılıb. Onların peşə vərdişlərinə yiyələnmələri, bilik və bacarıqlarını artırmaları üçün təcrübəli əməkdaşlar tərəfindən tədbirlər görülür, lazımi kömək göstərilir. Eyni zamanda, onların peşəyönümlü bacarıqlarının nümayiş etdirməsi üçün vaxtaşırı müsabiqələr təşkil olunur. Gənclərimiz beynəlxalq elmi konfranslarda, möhtəşəm idman yarışlarında qazandıqları qələbələr həm də Azərbaycan adına şöhrət, hamımıza iftixar və qürur gətirir.

DİN-in tədris müəssisələrində sabahın yüksək ixtisaslı mütəxəssislərinin hazırlığı üçün müasir tələblərə uyğun şərait, kitabxanalar, kompyuter zalları, auditoriyalar, laboratoriyalar yaradılıb.

***"Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir".*** Ulu öndər Heydər Əliyevin bu fikri indi də aktual səslənir və gəncləri Azərbaycanın sabahı naminə səfərbər edir.

Bu gün Azərbaycanın gəncliyi ölkəmizin sabahını yalnız Prezident İlham Əliyevlə bağlayır, öz həyat və yaradıcılığını xalqına, Vətəninə və dövlətinə həsr etməyə hazırdır.

*R.Əliyeva,*
*polis leytenantı*

# GÖRÜŞƏNƏDƏK, QUBADLI...

**1988-ci ildən başlayaraq, Ermənistanla və Dağlıq Qarabağla sərhəddə yerləşən Qubadlı rayonuna hər iki tərəfdən təcavüzkar hücumlar başlanmış, dinc əhaliyə qarşı qırğınlar sistemli şəkildə davam etdirilmişdir.**



Laçın, Ağdam, Füzuli, Cəbrayıl rayonları işğal olunduqdan sonra yarımmühasirə vəziyyətinə düşən Qubadlı 1993-cü il avqust ayının 30-31-də erməni təcavüzkarlarının işğalına məruz qaldı. Nəticədə 30 min nəfərdən çox Qubadlı sakini yurd-yuvasından didərgin düşdü, respublikanın şəhər və rayonlarında məcburi köçkün kimi məskunlaşdı.

Bu tarixi yurd yerimiz 238 şəhid verdi. Onlardan 9-u ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görüldü.

Zəngin yeraltı sərvətlərə və əsrarəngiz təbii gözəlliyə malik olan, Zəngəzur dağları ilə Dağlıq Qarabağ silsiləsi arasında yerləşən Qubadlı rayonu ərazisində 13160 hektar təkcə dövlət meşə fondu vardı, yaşı yüz illərlə ölçülən nadir növlərdən olan 10-dan artıq iri gövdəli, şaqqalı ağaclar təbiət abidəsi kimi qorunurdu.

Pirlər, ibadətgahlar bu yerlərdə hələ islamdan çox-çox əvvəl daimi məskunlaşma yerlərinin mövcudluğunu göstərir. Bunu həm də tarixi bilinməyən qədim qəbiristanlıqlar, ayrı-ayrı yaşayış məskənlərinin yaxınlığından tapılmış maddi məişət nümunələri də təsdiq edir. Tapılmış maddi mədəniyyət nümunələri bu yerlərdə qədimdən əkinçilik və heyvandarlıqla məşğul olunduğunu göstərir.

Qubadlı şəhəri ərazisində aşkar olunmuş "Xırman yeri", Əliquluuşağı kəndindəki "Qalaça", "Koroğlu qalası", Muradxanlı kəndi ərazisində olan "Mal təpə" abidələri son tunc, ilk dəmir dövrünə aid edilir.

Düşmən 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı Tarix-Diyarşünaslıq Muzeyini talan etdi, IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, V əsrə aid "Qalalı" və "Göyqala" abidələri, XIV əsrdə tikilmiş "Dəmirçilər" türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr hazırda işğal altındadır.

Bu gün igidlər yurdu Qubadlı igidlərin yolunu gözləyir. Görüşənədək...

# TƏKCƏ ALTI AYDA...

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatlarına əsasən, 2018-ci ilin yanvar – iyun aylarında qeydə alınmış 12844 cinayət hadisəsinin 1813-ü və ya 14,1 faizi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olub.** Onların da 58,2 faizini satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma, 33,2 faizini eyni hərəkətləri müvafiq qanunla müəyyən edilməyən qaydada satış məqsədilə etmə, habelə bu maddələri istehsal etmə, göndərmə və satma, 6,5 faizini qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə, 2,1 faizini isə güclü təsir edən və ya zəhərli maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər təşkil edib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət törətmiş 1227 nəfərin 87,2 faizini heç yerdə işləməyən və oxumayanlar, 38,4 faizini əvvəllər də cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər təşkil edib. Cinayət törədənlərin 0,3 faizi yetkinlik yaşına çatmayanlar, 7,3 faizi 18-24 yaşlı, 13,3 faizi 25-29 yaşlı gənclər, 79,1 faizi isə 30 və yuxarı yaşlı şəxslər olub.

Cari ilin yanvar-iyun aylarında müsadirə edilmiş 1441,9 kiloqram narkotik maddələrin 674,5 kiloqramını heroin, 508,8 kiloqramını marixuana, 198,9 kiloqramını tiryək, 44,4 kiloqramını həşiş, həşiş yağı və qətranı, 15,3 kiloqramını isə digər narkotik və güclü təsiredici vasitələr təşkil edib.

# SƏRHƏDÇİ ÖMRÜ

**"Səni Yardımlı rayonuna göndəririk, etiraz etmirsən ki?"-deyəndə gülümsədi: "Niyə etiraz edim ki, mən bu peşəni könüllü seçmişəm və harada desələr, orada da Vətənimə xidmət edib, onun sərhədlərini qoruyacağam".**

**Kadrların bölgüsünü həyata keçirən polkovnik ayağa durub onu bağrına basdı.**

**"Sənə inanıram, bilirəm ki, özünü doğruldacaqsan. Cavan oğlansan, indi bərkə-boşa düşməsən, bu peşənin sirlərini dərindən öyrənməsən sonra tabeçiliyində olan əsgərlərə dil tapmaq, daha doğrusu, onlara əsl sərhədçi vərdişlərini aşılamaq sənə çətin olacaq".**

**"Cənab polkovnik, əmin olun ki, etimadı doğrultmağa çalışacağam. Bir də ki, uzaq Sibirə ha getmirəm. Havası, suyu gözəl olan, uca dağları, yaşıl meşələri ilə göz oxşayan, könül sevəliyən Yardımlıya gedirəm"...**

Leytenant Rüfət Quliyev kənd uşağıydı, dağda-daşda böyümüşdü. Aclığa-susuzluğa da dözümlüydü. Səhər tezdən yediyi bir büküm dürməklə axşama kimi quzu otarar, bir də hava qaralanda, çöldən əl-ayaq çəkiləndə evlərinə qayıdardı. Kürəyini, əllərini, üzünü günün yandırdığı yerlərə anası qatıq sürtərdi ki, çox incitməsin. Axı, səhər çörək bişirmək üçün meşəyə odun gətirməyə o gedəcəkdi.

Dünyaya elə bu biçimdə, bax, elə bu görkəmdə gəlmişdi sanki. Hərdən atası deyirdi ki, a bala, qoyun-quzunu çox sərhəd tərəfə aparma, birdən o taya keçər, sən də arxasınca getməli olarsan, Allah göstərməsin, başına bir iş gələr.

Beləcə, uşaq vaxtı sərhəddən gözü qorxmuşdu. Hərdən yuxusunda görürdü ki, "Maral" adlı inəkləri sərhədin o üzünə keçib. O da qarşı tayda dayanmış əli avtomatlı əsgərlərin gözündən oğurlanıb keçərək, inəyi öz tərəflərinə gətirir. Hətta bir dəfə nənəsi Narın arvadın inək saga-sağa dediyi bayatıdan sonra o üzə baxıb kövrəldiyinin də şahidi olmuşdu.

*Bu tayda tikan mənəm,*
*Dərdini çəkən mənəm.*
*Bilmədin, zalım oğlu,*
*Yola göz dikən mənəm...*

Rüfət sərhədlə dostlaşmaq, ona isinmək, nənəsinin danışdığı nağılları ona danışmaq istəyirdi. Elə bilirdi ki, bu sərhəd deyilən nədisə, adam kimi dil bilir, ağlayır, gülür, sevinir. Bir dəfə nənəsinin dediyi bayatılardan birini bu tayda hündür bir ağacın başına çıxıb oxuyanda o taydakı əliavtomatlı əsgərin doğma səs, nəfəs, əzizini görmək üçün o yana-bu yana vurnuxduğunu da görmüşdü.

Uşaq idi. Nə biləydi ki, o üzdə dayanan da qanının, canının bir parası bu üzdə qalmış Azərbaycan övladıdır - təbrizli, zəncanlı, urmiyalı, mərəndli, xoyludur...

Böyümüşdü, artıq hər şeyi başa düşürdü. "Mən sərhədçi olacağam", - deyəndə anası Güldəstə xanım etiraz etsə də atası Yaqub kişi bircə bunu dedi: "Ürəyin istəyirsə, get bu peşənin dalınca. Əsl kişi işidir".

Bilirdi ki, çətin, məsuliyyətli, lakin şərəfli bir peşəni seçib. Hər an ölümlə üzbəüz gələ bilər. Sərhəd pozucuları ilə mübarizə aparmaq üçün bəlkə də gecə-gündüz bilmədən, istidə, soyuqda, qarda, buzda xidmət aparacaq.

Keçən illər ərzində çox çətinliklərə dözdü Rüfət. Hamı xətrini istəyirdi. İndi rəhbərlik belə qərara gəlmişdi ki, tez-tez sərhəd pozucuları tərəfindən insidentlər törədilən Yardımlıya göndərsinlər onu...

Qapıdan çıxmaq istəyəndə polkovnik saxladı. "Özündən və əsgərlərindən muğayat ol", - deyib bir xeyli arxasınca baxdı. Sanki Rüfəti axırıncı kərə görürmüş kimi, qəlbinin dərinliklərindən qopan gizilti bölgü bitənə kimi onu narahat etdi...

Zastavaya gəldiyi günün səhəri əsgərləri bir yerə yığdı. Onlara ilk tapşırığı belə oldu: "Ayıq-sayıq olun, özünüzü qoruyun, çünki sizi evdə valideynləriniz gözləyir. Bir də, çalışın ki, günün tələbini, nizam-intizamı pozmayasınız. Əgər kimsə səhv buraxsa, cəzalandıracağam".

Sərhəd naryadını yoxlayarkən gənc əsgərlərə dönə-dönə tapşırırdı ki, ayıq davranın, təhlükəli nəsə hiss edəndə biri-birinizə xəbər edin.

İkinci il idi ki, burda xidmət aparırdı. Arvana kəndinin sakinləri onu öz doğması-əzizi bilirdi. O da çalışırdı ki, camaatın xeyirində - şərində iştirak eləsin. Sakinlərlə görüşəndə ilk sözü "Uşaqlarınızı sərhəd pozanların bu üzə keçirə bildiyi "ağ ölüm"dən qoruyun, uzaq tutun" olurdu...

...O gün hava qaralmışdı. Göyün üzü qəzəbdən boğulan adam kimi tutulmuşdu. Hərdən şimşək çaxması, göy guruldaması yağış yağacağından, hətta leysan olacağından xəbər verirdi. Yenə naryad növbətçisi idi. Posta yaxınlaşanda hiss etdi ki, o üzdən üç-dörd qaraltı kölgə kimi sürünüb bu üzə keçdi. Əsgər Rəfiyev komandirini görəndə məruzə etmək istəsə də, o, əli ilə "sus" işarəsi verdi. Kölgələr yaxınlaşanda havaya bir dəfə atəş açdı. Gələnlər bəlkə də belə gözləmirdilər.

Və atışma başladı. Rüfət əsgərə: "Sən özünü qoru və yoldaşlarını köməyə çağır", - deyib gələnlərin diqqətini bir nöqtəyə-özünə tərəf yönəltdi. Gələnlər tələm-tələsik ö üzə keçməyə imkan qazanmaq üçün dayanmadan güllə yağdırırdılar. Birdən Rüfətin sinəsindən sanki od qalandı. Nəfəsi daraldı, özünü toparlayıb ayağa qalxdı, dalbadal atəş açmağa başladı.

Gələnlər artıq getmişdilər. Aralarında yaralananı da vardı, çünki bu üzdə yerə qan tökülmüşdü...

Arvanadanşəhər mərkəzinə yönələn maşında Rüfəti qan apardıqca huşu gedib-gəlirdi. Maşına iki-üç nəfər cavan da minmişdi. Axı, ona qan lazım olacaqdı. Əsgərləri yanında idi. Son dəfə onlara baxaraq: "Bu sərhəd, bu camaat sizə əmanət", - deyib gözlərini yumdu...

Arvana yas içində idi. Göylərdə isə bu tayda ağaca çıxıb nənəsindən öyrəndiyi bayatını oxuyan bir kənd uşağının ruhu dolaşırdı...

*Hafiz Təmirov,*
*polis mayoru*

# SALAM ALDIM, VERDİM Kİ...

**Elə ölkələr var ki, onlarda adi üsulla yanaşı, öz tarixi keçmişlərinə aid olan salamlaşma qaydaları var.**

Çində salamlaşarkən baş əyən zaman əl bədən boyu uzadılır. Bir-birinə yapışdırılan əl həm birliyi, həm də salam verən şəxsin humanistliyini göstərir. Belə ki, baş əydiyi vaxt sinədən aralı əl yapışdırmaqla salam verən həm də "Mən mərhəmətliyəm" jestini edir.

Qədim Şərq döyüş növlərindəki mübarizədən əvvəl və sonra edilən məşhur salamlaşma "Mən həm mərhəmətliyəm, həm də güclüyəm" anlamını daşıyır. Yaqin xatırladınız, həmin salamlaşmada sol əl düz və açıq halda yuxarı qaldırılır, sağ əlin yumruğu isə açıq sol əlin içinə vurulur. Burada açıq əl mərhəmətliyin, yumruq isə gücün rəmzidir..

Fransada salamlaşan zaman havaya birdən beşə qədər öpüş göndərilər.

Soyuqdan donan loplandiyalılar burunlarını bir-birinə sürtürlər.

Yaponlar üç növ baş əymə ilə salamlaşırlar: Ən alçaq, orta və yüngül. Bu da yüksək mədəniyyətə və intizama sahib olan yaponların qarşısındakı adama verdiyi hörməti əks etdirir.

Tibetlilərdə görüşmək çox qəribə vəziyyətdə baş verir. Onlar salamlaşan zaman sağ əllə papaqlarını çıxarır, sol əllərini isə qulağının arxasına qoyub dillərini göstərirlər.

Salamı və sağollaşmanı ifadə edən bəzi jestlər var ki, onlar fərqli yerlərdə fərqli məna daşıyır. Məsələn, bəzi ölkələrdə bütün qolunu bir tərəfdən digər tərəfə yelləmək "salam", " sağ ol" mənasını ifadə etdiyi halda, Şərqi Asiya ölkələrində bu tamamilə nümayişkaranə bir hərəkətdir. Əlavə olaraq, bəzi Avropa ölkələrində, Yaponiyada, Latın Amerikasında bu "xeyr", ümumiyyətlə, inkar cavab sayılır. Hindistanda isə bu "bura gəl" deməkdir.

Şəhadət barmağından başlayaraq, kiçik barmağa qədər saymaq Almaniyada və Avstraliyada insanları bir az çaşdıra bilər. Çünki bu ölkələrdə şəhadət barmağını qaldırmaq içki sifariş edərkən biri əvəzinə ikisini istəmək deməkdir. Yaponiyada isə baş barmağını qaldırmaq 5 mənasını verir. Macarıstanda sayanda baş barmağı 1 kimi sayılar.

Müsəlman dünyasında da əl sıxmaq və salamlaşmadan xüsusi məna daşıyır. Əvvəlcə onu deyək ki, "salam"ın özü ərəb sözüdür və "sülh olsun" mənasını verir.

Ərəb ölkələrində qadınların əlini sıxaraq görüşmək qəti qadağandır. Tarixin elə mərhələsi olub ki, ərəb ölkələrində kişilərin belə əl sıxması caiz deyildi. Amma Hz.Məhəmməd peyğəmbərin dövründə əllə görüşmək çox xoş bir əlamət sayılırdı.

*Ə.Ruhiyyə*

# BÖLGƏLƏRDƏ TƏLİMLƏR KEÇİRİLİB



**Şəxsi heyətin fiziki hazırlığının daha da artırılması, silahsız özünümüdafiə fənlərinə daha yaxşı yiyələnmələri məqsədi ilə Bakı şəhəri ilə yanaşı Gəncə, Sumqayıt, Göyçay və Masallı şəhər-rayon Polis Baş İdarə, İdarə və Şöbələrində ətraf rayonların ərazi polis orqanlarının əməliyyat xidmətinin ümumilikdə 170-ə yaxın əməkdaşının iştirakı ilə təlim toplantısı keçirilib.**

Bu toplantılarda DİN İdman Cəmiyyətinin İdmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov silahsız özünümüdafiə üzrə təlimlərin aparılmasının başlıca prinsiplərini açıqlayıb, hər bir polisin müvafiq proqrama yiyələnməsinin əhəmiyyətini nəzərə çatdırıb.

Sonra həmin fənlərin daha yaxşı mənimsənilməsi məqsədi ilə əməkdaşlar öz bacarıqlarını nümayiş etdiriblər.

Bölgələrdə ərazi polis orqanlarının şəxsi heyəti ilə aparılan fiziki hazırlıq



məşğələlərinin səmərəliliyinin artırılması, əməkdaşların silahsız özünümüdafiə fən-



lərinə daha yaxşı yiyələnmələri üçün müvafiq tapşırıqlar verilib.

Yazının əvvəlində də qeyd etdiyimiz kimi, şəxsi heyətin fiziki hazırlığının artırılması, silahsız özünümüdafiə fənlərinə daha yaxşı mənimsənilməsi üçün həyata keçirilən bu cür tədbirlər həm əməkdaşlarımızın sağlamlığına, həm də xidməti fəaliyyətimizə öz töhfəsini verir.

*Zeyni Hüseynov,*
*polis serjantı*




## "XƏZRİ" sizi gözləyir!



**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun 2018-ci il tarixdən 15 sentyabr 2018-ci il tarixədək mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Bir günlük xərc tək polis əməkdaşı üçün 28.75 manat (iki nəfərlik nömrəni tək tutduqda 42.50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 86,36 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 72,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 115 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 145 manat təşkil edir.

**3.** Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

**4**. 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, trenajorlardan, akvaparkdan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metrostansiyasından 171 nömrəli avtobus gəlir.

**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 1 iyun 2018-ci il - 15 sentyabr 2018-ci il (2 nəfərlik standart otağın qiyməti : iki nəfər qaldıqda 230 manat, bir nəfər tək qaldıqda 170 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 28,75 | 42,50 |
| Onun ailə üzvü (50% güzəştlə) | 57,50 | 85,00 |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 115 | 170 |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 | |




Rutgers, İndiana və Perdyu universitetlərinin alimlər qrupu «Wi-Fi» şəbəkəsi vasitəsilə ictimai yerlərdə partlayıcı maddələrin və kimyəvi silahın aşkarlanması metodunu hazırlayıb.

Sistem baqajın analizi üçün kanalın vəziyyəti haqqında informasiyadan (CSI) istifadə edir, onun fəaliyyəti üçün yalnız «Wi-Fi» marşrutlayıcısı tələb olunur.

Alimlər tərəfindən sistemin çanta və plastik paketlərdə maye və bərk vəziyyətlərdə olan 15 müxtəlif obyekt üzərində sınağı keçirilib. Nəticədə sistem təhlükəli əşyaları təhlükəsizlərdən 99 faiz dəqiqliklə fərqləndirib, eləcə də obyektin tərkibinin müəyyənləşdirilməsi 97 faiz təşkil edib.

Texnologiyanın ictimai yerlərdə təhlükəsizliyin təmini üçün istifadə ediləcəyi barədə məlumat verilmir. Hazırda sistemin ilkin sınaqları keçirilir, mühəndislər tərəfindən isə ictimai «Wi-Fi» şəbəkələrinin sistemin işində səhvlərə səbəb ola biləcək müdaxilədən mühafizəsi üçün həll təqdim edilməyib.

*****

***"Gartner" analitik şirkəti yaxın illərdə informasiya təhlükəsizliyinin təmini üçün qlobal məhsul və xidmətlər bazarı üzrə proqnoz verib. Analitik şirkətin qiymətləndirməsinə görə, ötən il bu sahədə ümumi xərclər 101,5 milyard dollar səviyyəsində olub. Ekspertlərin fikrincə, cari il qlobal bazarın həcmi 114,2 milyard dollara yaxınlaşacaq. Beləliklə, illik hesablama üzrə artım 12,4 faiz təşkil edəcək.***

***"Gartner"in analitikləri hesab edirlər ki, gələn il informasiya təhlükəsizliyi sahəsində genişlənmə davam edəcək, lakin artım tempi bir qədər azalacaq. Hesabata görə, yaxın illərdə informasiya təhlükəsizliyi sahəsində ümumi xərclərin təxminən 50 faizi müxtəlif xidmətlərin payına düşəcək. Bu xidmətlər cari ildə 58,9 milyard dollar, 2019-cu ildə isə 64,2 milyard dollar təşkil edəcək.***

*****

Çinin "Alibaba" internet şirkəti süni intellekt texnologiyalarına əsaslanan səsin tanınması sisteminin sınaqlarına başlayıb. Yeni xidmət qadağan edilmiş kontenti (həmçinin pornoqrafik xarakterli) izləmək və müəyyənləşdirmək qabiliyyətinə malikdir. Sistem səsli mesajı skriptə çevirir və sonuncu açar sözlərlə müqayisə olunur.

Tərtibatçının sözlərinə görə, sistem həm online, həm də offline rejimdə işləyir. Yeni xidmətin sentyabrda istifadəyə verilməsi gözlənilir.

*****

***Dünyada ilk dəfə internetə çıxışı olmayan telefonların satış həcmi yüksəlib. Yalnız zəng edən və zəngləri qəbul edən mobil telefonların satış həcmi ilk dəfə ötən il beş faiz yüksəlib. İnternetə çıxış imkanına malik olan smartfonların satış həcmi iki faiz artım səviyyəsində olub ki, bu da aşağı göstəricidir.***

***Materialın müəllifləri bildiriblər ki, belə tendensiyanın səbəblərindən biri alıcıların gün ərzində sosial şəbəkələrdən uzaq olmaq istəyidir.***

*Natiq Cavadov*

## Avqustun 24-dən 28-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 544 cinayət qeydə alınmış, onların 82-si «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 21 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 127 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 6 nəfər, borclu şəxs qismində axtarışda olan 61 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 23 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 21 nəfər ölmüş, 44 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 37 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 98 nəfər saxlanılmışdır.

Daxili İşlər Nazirliyinin rəhbərliyi Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oktay Kərimov və şəxsi heyəti Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayev və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti rəis müavini Elçin Rüstəmova anası
**DÜRNİSƏ RÜSTƏMOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin şəxsi heyəti Elçin Rüstəmova anası
**DÜRNİSƏ RÜSTƏMOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Su Nəqliyyatında Polis İdarəsinin rəisi Rövşən Eyyubov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Faiq Şabanov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Sumqayıt ŞPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Xətai RPİ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Nərimanov RPİ-nin rəisi Nəriman İmanov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Balakən RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Əbülfət Rzayev və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Xocavənd RPŞ-nin rəisi Yadigar Hüseynov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:30